UOT 314

*Kamran Yusif oğlu ƏLİYEV*
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi, magistr*
*1aliyevkamran@gmail.com*

*Elmi rəhbər: Leyla Arif qızı HACIYEVA,*
*i.f.d., dos., Azərbaycan Dövlət İqtisad Universiteti,*
*E-mail : leyla_hajiyeva@unec.edu.az*

# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARDA DEMOQRAFİK İNKİŞAFIN PERSPEKTİVLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** - Əminliklə qeyd etmək mümkündür ki, işğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan vermiş olacaq və nəticədə idxalı əvəz edən məhsulların yerli istehsal hesabına həcmi və çeşidi artmaqla yanaşı, ixrac yönümlü məhsulların istehsalı da artacaqdır. Bu əminliyin maddi bazasını işğaldan azad edilən ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını isə öz doğma yurdlarına qayıdan fədakar və məğrur insanlar təşkil edəcəklər.

**Tədqiqatın metodologiyası** - Tədqiqat işinin təhlili zamanı sistemli yanaşma və analiz metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, deduksiya və induksiya metodlarından da istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - İşğaldan azad olunmuş ərazilər sənaye və tikinti əhəmiyyətli müxtəlif növ materiallarla zəngindir. Eyni zamanda, bu ərazilər zəngin su ehtiyatlarına sahibdirlər ki, bu da ölkəmizin sənayesi və kənd təsərrüfatı üçün müstəsna əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticələri** - Sosial-iqtisadi inkişaf nəticəsində əldə olunmuş əhalinin rifah səviyyəsi əmək potensiallarından səmərəli istifadə edilməklə məşğulluq səviyyəsi, işləyənlərin məhsuldarlığı, əhalinin gəlirləri, iş şəraiti və digər amillər, eləcə də ölkənin hər bir vətəndaşının ehtiyaclarını nəzərə almaqla dövlətin gəlirlərinin bölüşdürülməsi sisteminin səmərəliliyi vasitəsilə müəyyən olunur. Əhalinin ehtiyaclarının qiymətləndirilməsi və buna uyğun olaraq ölkənin inkişaf strategiyasında fəaliyyət istiqamətlərinin planlaşdırılması ilk növbədə demoqrafik vəziyyətin monitorinqi və əhali inkişafının meyilləri əsasında həyata keçilir. Demoqrafik inkişaf kontekstində insan inkişafının davamlılığı dedikdə əhalinin optimal artımı, əhalinin təkrar istehsalının optimal tipi nəzərdə tutulur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - Əhalinin sürətli artımı və ya stabil azalması davamlı inkişafa maneçilik törədir. Hal-hazırda dünyada müşahidə edilən əhalinin sürətli artımı ətraf mühitə təsirin kəskin artması və insanların cəmi tələbatının çoxalması vasitəsilə ifadə olunur ki, bu da yoxsulluğun, iqtisadi geriliyin və ictimai qeyri-stabilliyin artmasına təsir göstərir.

***Açar sözlər: davamlı insan inkişafi, demoqrafik aspektlər, inkişaf perspektivləri.***

## *Giriş*

Ölkə prezidentinin 29 oktyabr 2020-ci il tarixli “AR-in işğaldan azad olunmuş ərazilərində müvəqqəti məxsusi idarəetmənin təşkili barədə” imzaladığı Fərmanda işğaldan azad edilən rayonlarda müvəqqəti komendantlıqların yaradılması və onların nəzdində fəaliyyəti zəruri hesab edilən dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin təmsil edilməsi, vaxt itirmədən ərazilərin qorunması və bərpası, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan məxsusi obyektlərin mühafizəsi, ictimai təhlükəsizliyin qorunması və başqa vacib məsələlər öz əksini tapmışdır.

Başqa tərəfdən, ölkə prezidenti 06 noyabr 2020-ci il tarixdə cari ilin sentyabr ayının 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin AR-in ərazisinə təcavüzü nəticəsində

mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, həmçinin sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın dəyərləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə məxsusi Dövlət Komissiyası yaratmış və ona tapşırılmışdır ki, dəymiş ziyanı dəyərləndirərək onların aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpa edilməsi və təmir-tikinti işlərinin reallaşdırılması üçün tələb edilən maliyyə vəsaitləri barədə təkliflərini ölkə prezidentinə təqdim etsin və xərclərə aid vahid məlumat bazasının yaradılması təmin olunsun.

Demoqrafık inkişafin rolu və onun sosial-iqtisadi inkişafa təsirinin dərəcəsi ictimai və sosial elm nümayəndələri və iqtisadçılar səviyyəsində illərlə müzakirə edilir. Bu məsələ ətrafındakı müzakirələr və mübahisələr nəticəsində üç nöqteyi-nəzər formalaşmışdır: l) əhalinin artımı sosial-iqtisadi inkişafi məhdudlaşdırır; 2) əhalinin artımı sosial-iqtisadi inkişafa təkan verir; 3) əhali artımı və sosial -iqtisadi inkişaf arasında asılılıq yoxdur. Hər bir nöqteyi-nəzərin tərəfdarları öz fıkrinin xeyrinə bir sıra sübutlar göstərirlər. Fərqli yanaşmalara baxmayaraq, nəzəriyyəçi və təcrübəçilərin əksəriyyəti iqtisadi artım və demoqrafık inkişaf arasındakı əlaqələrin müzakirəsində əhalinin artım tempi və əhalinin yaş strukturunun rolunun müzakirəsinə daha çox diqqət yetirirlər.

**İşğaldan azad olunmuş rayonlarda demoqrafık inkişaf formaları**

Əhalinin iqtisadi ehtiyacları və davranışı həyatın müxtəlif mərhələlərində fərqlənir və əhalinin yaş - cins strukturunda baş verən dəyişikliklər ölkənin ümumi iqtisadi fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məlumdur ki, uşaqlar və cavanlar səhiyyə və təhsil sahələrinə investisiyaları tələb edir, orta yaşda olan əhali istehsalı və yığımı təmin edir, yaşlı nəslin isə tibbi xidmətə və sosial təminata, xüsusilə pensiya təminatına ehtiyacları vardır. Beləliklə, cavan nəslin və uşaqların payı çox olan ölkələrdə öz ehtiyatlarının əsas hissəsini əhalinin bu kontingentinin ehtiyaclarına yönəltdiklərinə görə, həmin dövrdə iqtisadi inkişafin aşağı artım templəri müşahidə olunacaqdır. Ölkədə yaşlı nəslin xüsusi çəkisi yüksəkdirsə, yaş strukturu ölkənin iqtisadi inkişafina eyni ləngidici təsir göstərəcəkdir. Əmək qabiliyyətli yaşdan aşağı və yuxarı yaşlarda olan əhali qeyri-məhsuldar təbəqəni əks etdirir və onların saxlanılmasına böyük həcmdə resurs tələb olunur ki, bu da iqtisadi inkişafin templərini azaldır. Öz növbəsində, əmək qabiliyyətli yaşda əhalinin xüsusi çəkisi yüksək olan ölkələrdə mövcud əmək potensialından səmərəli istifadə etməklə "demoqrafık divident" yaradılır [1].

**İşğaldan azad olunmuş rayonlarda demoqrafik təhlil**

Tədqiqat işinin təhlili zamanı sistemli yanaşma və analiz metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, deduksiya və induksiya metodlarından da istifadə edilmişdur. Belə ki, induksiya metodu vasitəsilə tədqiqat işi barəsində iqtisadi dəlillər toplanmış, araşdırılmış və sistemləşdirilmişdir. Sintez metodu daha detallı bir araşdırma məqsədi vasitəsilə fərdi elementləri bütöv hala gətirmək üçün istifadə edilmişdur. Bu metod təhlil metodu vasitəsilə olduqca sıx əlaqəlidir, çünki hər zaman fərdi analiz nəticələrini özündə cəmləyən əsas element kimi mövcuddur. Beləliklə, məqalədə sistemli analiz metodu tətbiq edilir, buna müvafiq şəkildə, problem iqtisadi inkişafa müvafiq əlaqəli tarixi inkişaf yönündən təhlil edilir. Məqalənin hər bir mərhələsində həm ümumi sintez metodları və elmi analiz, həmçinin məntiqi analiz, iqtisadi-statistik metod, müqayisə və təsnifat metodları, həm də ekspert dəyərləndirmə metodlarından istifadə edilmişdir [8].

Vətən savaşı dövründə mənfur qonşumuz həmin rayonlarla yanaşı, başqa əraziləri də atəşə tutaraq böyük sayda dağıntılar törətmişdir. Odur ki, görüləcək işlərin miqyasını müəyyən etmək çətin deyil. Bizim fıkrimizcə, həmin ərazilərdə aparılacaq genişmiqyaslı bərpa və tikinti-quraşdırma işləri beynəlxalq standartlara və müasir dövrün tələblərinə müvafiq aparılmalı, sosial-iqtisadi tədbirlər aşağıdakı üç istiqamətdə həyata keçirilməlidir:

- qismən bərpa ediləcək rayonlar (Ağdam, Füzuli, Tərtər, Bərdə, Ağcabədi, Gəncə);
- nisbətən az bərpa ediləcək rayonlar (Xankəndi şəhəri, Xocalı, Şuşa, Xocavənd);
- tam bərpa ediləcək rayonlar (Cəbrayıl, Kəlbəcər, laçın, Qubadlı və Zəngilan).

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə "demoqrafık keçid" prosesi əsasən başa çatmışdır. Bu proses yüksək doğum və ölüm göstəricilərinin aşağı səviyyələrə düşməsi vasitəsilə xarakterizə olunur. Qeyd edilən demoqrafık keçidin ilkin mərhələlərində doğum göstəricilərinin azalması

zamanı 0-14 yaş qrupunda əhalinin sayı azalır. Bu dövrdə müəyyən vaxt ərzində işçi qüvvəsi (15-64 yaş qrupu) himayədə olan əhali qruplarından (0-14 və 65+ yaş qrupları) nisbətən yüksək templərlə artır və demoqrafik yük əmsalı aşağı düşür, bu da iqtisadi inkişafa və sosial təminata investisiya qoyuluşu üçün ehtiyatları sərbəstləşdirir. Əhalinin gəlirləri daha sürətlə artır [8].

Qeyd edilən dividentin təsiri əlli ildən çox olan bir dövrü əhatə edə bilər. Məlumdur ki, doğumun aşağı səviyyədə olması işçi qüvvəsinin artım tempinin azalmasına səbəb olur. Ölüm göstəricilərinin azalması və ömür uzunluğunun artması isə yaşlı nəslin sayının və onların xüsusi çəkisinin artmasına (əhalinin yaşlaşmasına) gətirib çıxarır [7].

Beləliklə, birinci divident ölkəyə müvəqqəti səmərə gətirir, ikinci divident isə bu səmərəni daha böyük həcmdə aktivlərə çevirməklə davamlı inkişafı təmin etməkdədir. Qeyd olunmalıdır ki, alınacaq nəticələr ilk növbədə ölkədə aparılan ardıcıl sosial-iqtisadi siyasət nəticəsində gözlənilə bilər. Demoqrafik dividentin fəaliyyət müddəti əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün tam zəmanət deyil, yalnız bir imkandır. Dividentin həcmi əhalinin hər bir yaş qrupunda istehsalın və istehlakın həcmindən asılıdır [7].

Əlverişli demoqrafik vəziyyətdə birinci dividenti reallaşdırmanın səviyyəsinə digər amillərlə bərabər gənclərin və yuxarı yaş qruplarının əmək məhsuldarlığı ciddi təsir göstərir. Gənclərin əmək məhsuldarlığı ilk növbədə gənc valideynlərə işləmək imkanını təmin edən siyasət tədbirlərindən, eləcə də təhsil sahəsində qəbul edilən qərarlardan və gənclərin işə düzəlmə sahəsində ölkədə yaranmış praktikanın effektliliyindən asılı olur. Bununla bərabər, gənc ailələrdə doğulan uşaqların sayı və eləcə də uşaqlar arasında vaxt araları gənc valideynlərin əmək məhsuldarlığına müəyyən təsir edirlər.

İkinci dividentin həyata keçirilməsi əsasən cəmiyyətin ahıl vətəndaşları necə dəstəkləməsindən asılıdır. Bir çox ölkələrdə ahıl vətəndaşlar onların ailələri və dövlət tərəfindən dəstəklənir, lakin, bundan əlavə onlar işlədikləri illər ərzində topladıqları vəsaitlərdən də asılıdırlar. Bu vəsaitlərə pensiya, şəxsi pul ehtiyatları və mənzil aiddir. Əhalinin yaşlaşması vasitəsilə əlaqədar ailələrin və dövlətin üzərinə düşən dəstəkləmə yükü ÜDM-ə nisbətdə daha da artır. Bu isə bir çox ölkələrdə ciddi narahatlıq yaradır. Aparılan siyasət, işləyənləri təqaüdə çıxdıqdan sonrakı dövr üçün ehtiyat yığım yaratmağa stimullaşdırarsa, ikinci dividentin sayəsində orta yaşda olan işləyənlərin böyük əksəriyyəti kapitalın həcmini ÜDM-ə nisbətdə əhəmiyyətli dərəcədə artıra bilər.

Müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafının davamlılığının təmin olunması əhalinin yaşlaşmasından irəli gələn problemlərinin həll olunmasını tələb etməkdədir. Ahılların sayının artması vasitəsilə dövlət tərəfindən ayrılan sosial transfertlərin artırılması ümumi dövlət aktivlərini azaldır və ikinci demoqrafik dividentin azalmasına gətirir. Eyni zamanda, işləyənlər pul yığımı və təqaüd fondunun yaradılması üçün dəstəklənəcəklərsə, əhalinin yaşlaşması hər işçiyə hesablanan kapitalın həcminin və əhalinin hər nəfərinə düşən gəlirin artmasına gətirib çıxara bilər. Beləliklə, etibarlı maliyyə sistemlərinin yaradılması əhalini özünün maliyyə gələcəyini yaratmağa və iqtisadi artıma səbəb olan potensialı reallaşdırmağa stimullaşdıracaq.

İşğaldan azad edilən ərazilərdə tikinti-quraşdırma və abadlaşdırma işlərini fasiləsiz həyata keçirmək üçün yerli daş karxanaları, qum çınqılı, əhəng, sement və s. istehsal edən müəssisələrin işini bərpa etmək məqsədilə rayonları təmsil edən mövcud 35-ə yaxın tikinti təşkilatı ərazilərə köçürülməli, onların işçiləri üçün konteyner tipli vaqonlar və modul evlər quraşdırılmalıdır. Həmçinin dövlət, özəl və xarici şirkətlər cəlb edilməklə ərazidə respublika və yerli əhəmiyyətli avtomobil, eləcə də Horadiz-Naxçıvan və Bərdə-Xankəndi dəmir yolları bərpa olunmalıdır. Həmin şirkətlərin vasitəsilə rayonlarda ilk növbədə mobil rabitə sistemi, onun ardınca isə poçt-rabitə şəbəkələri bərpa edilməli, eyni zamanda, asfalt-beton mobil zavodların tikintisi, ərazilərin elektrik enerjisi vasitəsilə təminatı, su və qaz təchizatının bərpa edilməsi işləri həyata keçirilməlidir.

Dövlətin inkişafında bu sahələrin rolunu geniş mənada təsərrüfat subyekti kimi qiymətləndirmək olar. Belə ki, təsərrüfat subyektində istehsal edilən məhsulun həcmi, strukturu bazar tələbatına uyğun planlaşdırılır. Sosial sahələr iqtisadiyyatın kommersiya marağını deyil, ümumi halda əhalinin, eləcə də, dövlətin ümumi ehtiyaclarını ödəyə bilmək üçün təkmilləşdirilir.

Bütövlükdə bu sektorun inkişafi iqtisadiyyatın fəaliyyətinin səmərə göstəricisi kimi qəbul oluna bilər. Çünki, milli iqtisadiyyatın inkişafının problemlərinin təsnifatından(işsizlik, əhalinin respublikadaxili miqrasiyası, xarici ölkələrə “beyin axını” və digər problemlər) görünür ki, respublikada iqtisadi artımla əhali artımı, bölgü münasibətləri və mübadilə şərtləri əlaqədar olduğu üçün onun öyrənilməsi, tədqiqi, eləcə də, inkişafının tənzimlənməsi kompleks şəkildə reallaşır. Əsas göstəricilərdən biri kimi əhalinin həyat səviyyəsi öz mahiyyəti etibarilə sosial-iqtisadi kateqoriya olub insanların istehlakı üçün lazım olan maddi - mənəvi nemətlərin miqdarı, onların tələbatın ödənilməsi göstəricisidir.

Sosial sahələrin hər biri əhalinin rifahının yüksəldilməsinə xidmət etməkdədir. Bununla bərabər sosial sahələr qarşılıqlı əlaqədə də tələbat sisteminin ödənilməsinə yönəldilir. Bunlara daxildir:




**Şəkil 1: Sosial sahələr.**

*Mənbə: Azər Pənahov, 2016, s.73.*

Sosiai sfera həm ümumi, həm də spesifık iqtisadi qanunlara tabe olan tam bir sosial strukturdur. Burda sosial sahələrin inkişafi cəmiyyətdə müxtəlif iqtisadi funksiyalar yerinə yetirir. Sosial sahələri ictimai həyatın yaşayış tərzini təmin edən tərkib hissəsi kimi qiymətləndirmək lazımdır. Belə ki, bu sahələrin inkişafi insanın, mövcud şəraitin, tələbatın ödənilmə variantlarının elmi əsaslarla proqnozlaşdırılması metodologiyasına əsaslanır. Ona əsasən də onları idarə etməzdən əvvəl sosial proqnozlar verilir.

Sosial sahələrin bölgüsü xalis sahələr üzrə, regionlar, funksional vəzifələr üzrə bölünür və tələbat sisteminə daxildir:




***Şəkil 2: Sosial sahələrin bölgüsü.***

*Mənbə: [4, s.27].*

Sosial sahələr insanın həyat səviyyəsi ilə daha sıx əlaqədə olub, yaşayış səviyyəsi vasitəsilə müəyyənləşdiyinə görə, bütövlükdə rəqabət mühitinə uyğunlaşdırıla bilməz. Bunu nəzərə alaraq demək olar ki, onların resurs təminatının əsas hissəsi dövlətin mərkəzləşdirilmiş resursları tərəfindən təmin edilir. Dövlət aztəminatlı ailələrin, əlillərin, tələbələrin, valideynlərini itirilmiş yeniyetmələrin, digər insanların, bir sıra digərlərinin tələbatını ödəyə bilmək üçün bunların xərcini büdcə vasitəsilə ödəmək ilə yaşayışın yüksəlməsinə, sosial rifaha, tərəqqiyə nail olur.

Qələbədən sonra “qaçqın” və “məcburi köçkün” sözləri tarixin arxivinə göndərilməli, qeyd edilən böyük həcmdə tikinti-quraşdırma və abadlıq işlərinin sürətlə və keyfiyyətlə aparılması və həmin məqsədlərə ayrılacaq pul vəsaitlərindən düzgün istifadə edilməsi üçün bu işlərə Fövqəladə Hallar Nazirliyinin cəlb edilməsi və yaxud Müdafiə Nazirliyinin tabeliyində hərbi xidmətə çağırılan (könüllü qulluq etmək istəyən müvafıq tikinti peşələrinə sahib) əsgərləri cəlb etməklə yaradılacaq məxsusi mühəndis-texniki təyinatlı hərbi quruma həvalə edilməsi qarşıya qoyulan məqsədlərin qısa müddətdə intizama tabe olan vahid komandanlıq altında başa çatmasına imkan vermiş olardı [3].

**İşğaldan azad olunmuş rayonlarda demoqrafik inkişafın perspektivlərinin araşdırılması**

Hesab edirik ki, işğaldan azad edilən rayonlarda müasir texnika və texnologiya ilə təchiz edilən, İKT-dən, yerli xammal, enerji və başqa resurslardan səmərəli istifadə etməyə imkanı olan aşağıdakı fəaliyyət sahələri üzrə fərdi, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin yaradılması regionun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə imkan yaratmış olacaqdır:

- rayonlarda onların spesifik xüsusiyyətlərinə müvafiq aqroparkların və müştərək müəssisələrin (kənd təsərrüfatı məhsullarının, iri və xırdabuynuzlu heyvan dərilərinin toplanması və emalı, dərman bitkilərinin tədarükü və emalı, yem tədarükü, süd və süd məhsulları istehsalı, arıçılıq, quru meyvə, meyvə şirələri və kompot hazırlayan müəssisə və s.) geniş şəbəkəsinin təşkili. Beynəlxalq təcrübəyə əsaslanaraq Qarabağın mövcud olan 329 inzibati ərazi aidəsində kəndlərin sayı üç və daha çox olan, əhalinin sayı isə 200-l000 nəfər təşkil edən l6l-də ixtisaslaşan və yaxud qarışıq tipli aqroparkların yaradılması mümkündür;
- Qarabağda çoxsaylı faydalı qazıntı yataqlarının mövcudluğu Kəlbəcər və Zəngilan rayonlarında müştərək dağ-mədən və əlvan metal istehsal edən müəssisələrin yaradılmasına imkan verə bilər;
- regionda 46 qəsəbənin mövcudluğu, eləcə də şəhərlərin real sənaye potensialı orda 28 sənaye və xidmət məhəlləsinin yaradılması imkanlarını gerçəkləşdirə bilər;
- Şuşada AMEA-nın Şuşa Regional Elmi Mərkəzini, AMEA Yüksək Texnologiyalar Parkının filialını yaratmaqla mövcud olan sənaye müəssisələrinin, elm və təhsil ocaqlarının iştirakı vasitəsilə müasir texnoparkın yaradılması şəhərin iqtisadi potensialından səmərəli istifadə olunmasına imkan verə bilər;
- Ağdam, Cəbrayıl və Qubadlı rayonlarında “Azərxalça” ASC-nin filiallarının yaradılması, həmin və başqa əlverişli şəraiti olan rayonlarda baramaçılığın inkişafı mikro və kiçik sahibkarlığın dinamik inkişafına təkan verə bilər;
- Kəlbəcər, laçın və Şuşada böyük həcmdə mineral su ehtiyatının olduğunu nəzərə alaraq, orda suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektinin yaradılması da yüksək iqtisadi səmərə verə bilər;
- Füzuli və Cəbrayıl rayonlarının ərazisində sərhəd azad ticarət zonalarının yaradılması regionun ixrac imkanlarını genişləndirmiş olar;
- Şuşa, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında tarixi abidələrin mövcudluğu orda turizmin inkişafına təminat yaratmış olacaqdır;
- Qarabağın hər bir inzibati rayonu çərçivəsində tərtib ediləcək özünüməşğulluq proqramı üzrə kənd təsərrüfatının müxtəlif sahələrində fərdi və mikro-sahibkarlıq fəaliyyətinin təşkili;
- fərdi, mikro və kiçik statuslu sahibkarlar tərəfindən dünyada məşhur olan Qarabağ atlarının sayının çoxaldılması;

- iri və xırdabuynuzlu heyvan dərilərinin aşınması və onlardan geyim əşyalarının və başqa xalq istehlakı mallarının istehsalının təşkili yerli əhalinin maddi rifah halının yaxşılaşmasına da imkan verə bilər;

- rayonların dağlıq kənd və qəsəbələrində fərdi, mikro və kiçik sahibkarlıq fəaliyyəti göstərilən obyektlərində, eləcə də fərdi yaşayış evlərində qardaş Türkiyənin mövcud və uğurlu iş təcrübəsindən istifadə etməklə alternativ və bərpa edilən enerji növlərindən istifadəyə üstünlük verilməsi faydalı olardı.

Sosial inkişaf dünya iqtisadiyyatı üçün zəruri tənzimlənmə obyektidir. Bura isə bir sıra göstəricilər daxildir. Respublikamız vətəndaşlarının artımına, əhalinin həyat səviyyəsi göstəricilərinə əsasən bir çox ölkələrdən geri qalır [5].

Xalq təsərrüfatının tinkişafinda sosial sistemin formalaşmasının ətraflı izahı aşağıdakı sxemdə göstərilmişdir. Belə ki, vahid məqsəd və alternativ resurslara, texnologiyalara, bölgü, stimullar sisteminə əsaslanmışdır.




***Sxem 1: Milli iqtisadiyyatın inkişafinda sosial sistemin formalaşması.***

*Mənbə: [7, s. 33].*

Milli iqtisadiyyatın fəaliyyətinin səmərə göstəricisi kimi sosial inkişaf qəbul edilə bilər. Çünki, bəzi problemlərin təsnifatından görünür ki, bu iqtisadi artımla, əhali artımı, bölgü münasibətləri, mübadilə şərtləri vasitəsilə əlaqədar olduğu üçün onun öyrənilməsi, tədqiqi inkişafının tənzimlənməsi kompleks şəkildə reallaşır. Onu da yaddan çıxarmaq olmaz ki, sosial inkişaf, onun tənzimlənən artımı iqtisadi artıma əks-təsir etməkdədir.

İqtisad elmində sosial sahələrin mahiyyətinə, onun məqsəd funksiyalarına, ona daxil olan digər sektorların tərkibinə aid müxtəlif fıkirlər mövcuddur. Sosial sahələrin infrastrukturunun regionlarda səmərəli şəkildə yerləşdirilməsində müəyyən şərtlər nəzərə alınmalıdır. Bunlara daxildir [6]:

- sosial infrastrukturun əhəmiyyəti;
- regionda oynadığı rol;
- qonşu regionlara onun təsiri.

Milli iqtisadiyyatın artımında dövlət və özəl sektorlar əsas rol oynayır. Bu sektorların hər bir funksiyasının təsiri sosial-iqtisadi inkişafa nail olmaqla nəticələnmişdir. Özələşdirmə özəl sektorun iqtisadi artımının möhkəmləndirilməsi, məşğulluq mənbəyi kimi getdikcə vacib rol oynamalıdır. Bu məqsədlə, Strateji Yol Xəritəsində bu istiqamətlərdə fəaliyyət planları tərtib edilmişdir. Milli iqtisadiyyatın inkişafinda dövlət, özəl sektorların inkişaf etdirilməsi, idarəetmənin təkmilləşdirilməsi, bu istiqamətdə korrupsiyanın azaldılması, iqtisadi səmərəliliyə, sabitliyin artırılmasına, hətta müsbət sosial, iqtisadi, ekoloji dəyisikliyə nail olmaq hədəflənmişdir.

Ölkəmiz dünyanın ən əlverişli mövqeyində olmaqla çox böyük əhəmiyyətə malik olmuşdur. Tranzit ölkə olan respublikamızın müasir inkişaf səviyyəsi, habelə dünya iqtisadiyyatına inteqrasiya etməsi bu istiqamətdə uğurlu olmuşdur. Elmi-texniki tərəqqi nəticəsində müasir texnologiyalardan istifadə olunması yüksək ixtisaslı iş qüvvəsi, insan potensialına sərmayə qoyulmasını şərtləndirir. Əmək ehtiyatlarında baş verən dəyişikliyin təhlili və proqnozlaşdırılması bir neçə istiqamətdə həyata keçirilir. Bunlar aşağıdakılardır:




***Şəkil 3: Əmək ehtiyatlarının təhlili və proqnozlaşdırılması.***

*Mənbə: [2, s.112].*

Sosial sahələrin inkişafinda ən zəruri resurs kadr potensialıdır. Belə ki, kadr potensialının keyfiyyəti burda, xüsusilə elm, təhsil, mədəniyyət, səhiyyə, turizm xidmətlərində daha önəmlidir. Kadr potensialı hazırlıq müəssisələrində (peşə məktəblərində, orta ixtisas müəssisələrində, ali təhsil müəssisələrində və sair) formalaşır. Məhz ona əsasən də, kadr potensialı hazırlığına önəm verilməlidir. Belə ki, əgər təhsil müəssisələrində kadr hazırlığı səviyyəsi yetərincə deyilsə, öz növbəsində müəssisələrin keyfiyyətli kadrlarla təmin olunmasında problem yaradacaq. Bu da son nəticədə milli iqtisadiyyatın inkişafinda əngəl yaradacaqdır. Statistik rəqəmlərə əsasən, kadr potensialı vasitəsilə əhatə olunma daha çox infrastruktur sahələrində məşğul olan əhalidir. Ümumi götürüldükdə milli iqtisadiyyatın inkişafinda kadr potensialı iqtisadi effektivliyin yüksəldilməsində, sivil cəmiyyətin formalaşmasında vacib yer tutmuşdur. Bu da onu göstərir ki, sosial sahələrdə çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi, təhsil səviyyəsinin təmin olunması dövlətin həyata keçirdiyi siyasətin əsas hissəsi olmalıdır.

Sosial prioritetlərin nəticələri baxımından, səmərəli ölçüsündən əhalinin demoqrafik göstəricilərinin qütbləşməyə təsir göstərən idarəetmə prinsipləri vardır. Bu prioritet istiqamətləri aşağıdakı bölümlərə ayırmaq olar:




***Şəkil 4:Əhalinin demoqrafik göstəricilərinin qütbləşməsinə təsir göstərən idarəetmə prinsipləri.***

*Mənbə: [1, s. 55].*

Əhalinin həyat səviyyəsi makrosəviyyəli məqsəd olmaqla, iqtisadi inkişafin sosial nəticəsi kimi ali məqsədlər rolunu oynamaqla, sahə, ərazi planlaşması, idarə olunmasının əsas göstəricisidir [9].

Sosialyönümlü problemlər əhatə dairəsinə əsasən, uyğun olaraq funksional makroiqtisadi sahə və funksional ünvanlı xarakter daşıyan meyillərdir. Bütün bunlarla bərabər, sahələrin inkişafi məqsədilə maddi və mənəvi həyat səviyyəsi əhalinin tələbat göstəricisi vasitəsilə bərabər, istehlak edilən maddi və mənəvi nemətlərin məcmusu kimi formalaşır. İstehlak edilən nemətlərin çox olmasına baxmayaraq, bəzən tələbat o qədər inkişaf edir ki, onun ödənilmə dərəcəsi faizə nisbətən az dəyişir.

### *Nəticə*

Fikrimizcə, Qarabağda əhalinin məskunlaşması tam başa çatdıqdan sonra:

- özəyi yeni yaradılacaq Milli Konservatoriyanın fılialı olmaqla Şuşa şəhərində bütün təyinatlı musiqi məktəbləri, yeni tikiləcək Muğam Evi, musiqi alətləri istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri, xalq çalğı alətləri orkestri və ansamblları və s. Musiqi Klasterinin yaradılması;
- rayonlarda bütün musiqi məktəblərinin fəaliyyətinin bərpa olunması;
- əlverişli mövqelərdə olan şəhərlərdə "ASAN" xidmət və "DOST" mərkəzlərinin yaradılması;
- rayonların sosial-iqtisadi inkişafının tələblərinə müvafiq ixtisaslı kadrların hazırlanması üçün əlverişli nəqliyyat-kommunikasiya şəbəkəsi olan mərkəzi şəhərlərin birində Qarabağ Dövlət Universitetinin, eləcə də ölkədə mövcud olan dövlət, özəl ali və orta ixtisas məktəblərinin fılial-larının, peşə təhsili ocaqlarının yaradılması imkanları da gerçəkləşəcəkdir.

Sosial idarəetmə və sosial tənzimləmə siyasət olmaqla sosial mexanizmlərin mahiyyəti onun prinsiplərinin və əsas maliyyə-maddi potensialının formalaşdırılması vasitəsilə nəticələnir. Tədqiqat nəticəsi olaraq əsas istiqamətlər, vəzifələr və mexanizmlər üzrə aşağıdakı problemləri və həll edilməsi yollarını təklif edirik.

Müasir şəraitdə sosialyönümlü problemlər, sosial sahələr, sosial siyasət, sosial proqramlar dövlət və idarəetmə sisteminin əsas prioritet istiqamətləridir.

Sosialyönümlü problemlərin maddi əsasını gəlirlər, istehlak, yoxsulluq probleminin gəlir və istehlak səviyyəsinə əsasən qütbləşmə təşkil etməkdədir. Müasir şəraitdə Azərbaycanın iqtisadiyyatının inkişafinda sosialyönümlü problemlərin prioritetliyi formal baxışdan deyil, ölkədə olan sosial tələbat və əhalinin rifahı, qütbləşmə səviyyəsi, region və sahə fərqləri, eləcə də, inteqrasiya amili kimi şaxələnmələrlə meydana çıxır.

### ƏDƏBİYYAT


1. Əlirzayev, Ə.Q. Sosial sahələrin iqtisadiyyatı və idarə edilməsi. Bakı, 2010, 374 s.
2. Əlirzayev, Ə.Q. və Əlirzayeva, T.Ə. Əhalinin gəlirləri və istehlakının maliyyə mexanizmləri. Bakı. 2006, 411 s.
3. Əlirzayev, Ə.Q. və Qurbanova, F.Ə. Xidmət sferasının iqtisadiyyatı və idarə olunması. Bakı, 2007, 279 s.
4. Qəribov, A., Əzizov, A. və Əhmədova, S. (2014). "Beynəlxalq Ticarət Əməliyyatları". Bakı, Azərbaycan 2017, 411 s.
5. Nağıyev, Ə., Novruzov, B., Allahverdiyev, H. və Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. B. 1998, 347 s.
6. Nağıyev, Ə.N., Əlirzayev, Ə.Q. və Quliyev, A.Q. Pensiya təminatının inkişaf perspektivləri. Bakı, 2001, 354 s.
7. Nəsibov, E. "Miqrasiyanın əsasları", 2014, 268 s.
8. Pənahov, A. "Beynəlxalq iqtisadi siyasət". Bakı, "Azərbaycan", 2016, 411 s.
9. Rəhmanov, F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində", Bakı. 1998, 374 s.

***Кямран Юсиф оглы Алиев***
***Азербайджанский государственный экономический университет,***
***Международный магистерский и докторский центр, магистр***
***1aliyevkamran@gmail.com***

***Науч. руководитель: Лейла Ариф кызы Гаджиева,***
***д.ф.э., доц., Азербайджанский государственный***
***экономический университет,***
***Электронная почта: leyla_hajiyeva@unec.edu.az,***

## Перспективы демографического развития в оккупированных регионах

***Резюме***

**Цель исследования -** Можно с уверенностью сказать, что создаваемая бизнес-среда на высвобождаемых территориях, формирование микро-, малых и средних предприятий придаст импульс динамичному развитию ненефтяного сектора, а по мере В результате увеличится производство экспортоориентированной продукции. Материальную базу этой уверенности составят природные богатства освобожденных территорий, а социально-экономическую базу - самоотверженные и гордые люди, вернувшиеся на родные земли.

**Методология исследования -** В исследовании использовались системный подход и методы анализа. Он также использовал методы дедукции и индукции.

**Значение применения исследования -** Демилитаризованная территория богата различными видами материалов промышленного и строительного назначения. В то же время этот район обладает богатыми водными ресурсами, имеющими исключительное значение для промышленности и сельского хозяйства нашей страны.

**Результаты исследования показывают,** что уровень благосостояния населения под влиянием социально-экономического развития определяется уровнем занятости, производительностью труда населения, доходами населения, условиями труда и другими факторами, а также потребности каждого гражданина страны. Оценка потребностей населения и, соответственно, направление деятельности в стратегии развития страны осуществляются, прежде всего, на основе мониторинга демографической ситуации и критериев развития населения. В контексте демографического развития продолжение человеческого развития означает оптимальный рост населения, оптимальный тип воспроизводства.

**Оригинальность и научная новизна исследования -** Быстрый рост населения или стагнация населения сдерживает дальнейшее развитие. Современный быстрый рост населения в мире отражается в резком усилении воздействия на окружающую среду и росте совокупных потребностей человека, что, в свою очередь, способствует росту бедности, экономической отсталости и социальной нестабильности.

***Ключевые слова: устойчивое человеческое развитие, демографические аспекты, перспективы развития.***

***Kamran Yusif oglu Alıyev***
***Azerbaijan State University of Economics,***
***International Master's and Doctoral Center, Master***
***1aliyevkamran@gmail.com***

***Scientific leader: Leyla Arif gizi Hajiyeva,***
***PhD in Economics, Azerbaijan State Economic University,***
***E-mail: leyla_hajiyeva@unec.edu.az***

**Perspectives of demographic development in occupyed regions**

**Summary**

**The purpose of the study -** It is safe to say that the business environment to be created in the laid-off areas, the formation of micro, small and medium enterprises will give impetus to the dynamic development of the non-oil sector, and as a result The production of export-oriented products will also increase. The material base of this confidence will be formed by the natural resources of the liberated territories, and the socio-economic base will be formed by selfless and proud people returning to their native lands.

**Research Methodology -** A systematic approach and analysis methods were used in the research. He also used deduction and induction methods.

**Significance of the application of the research** - The demilitarized area is rich in various types of materials of industrial and construction significance. At the same time, this area has rich water resources, which are of exceptional importance for the industry and agriculture of our country.

The results of the study show that the level of welfare of the population affected by socio-economic development is determined by the level of employment, the productivity of the population, the income of the population, working conditions and other factors, as well as the needs of each citizen of the country. . The assessment of the needs of the population and, accordingly, the direction of activities in the development strategy of the country are carried out primarily on the basis of monitoring the demographic situation and the criteria of population development. In the context of demographic development, the continuation of human development means the optimal growth of the population, the optimal type of reproduction of the population.

**Originality and scientific novelty of the research -** Rapid population growth or stagnation of the population hinders further development. The current rapid population growth in the world is reflected in the sharp increase in environmental impact and the increase in total human needs, which in turn contributes to the growth of poverty, economic backwardness and social instability.

***Key words: sustainable human development, demographic aspects, development prospects.***